UOT 342.4

**Sevinc Usub qızı Hüseynova**
AMEA Hüquq və İnsan Haqları İnstitutunun “Cinayət hüququ və cinayət prosesi” şöbəsinin elmi işçisi
E-mail: sevhuseyn@yahoo.com

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ PARLAMENTİNİN QANUNVERİCİLİK FƏALİYYƏTİ

**Açar sözlər:** Azərbaycan Cümhuriyyəti, İstiqlal bəyannaməsi, Parlament, Məclisi-Məbusan, qanunvericilik, Milli Şura, sovet hökuməti, milli hökumət, Nizamnamə

1918-1920-ci illər Azərbaycan xalqının siyasi və dövlətçilik şüurunun təşəkkül tapdığı, milli mənliyə qayıdış proseslərinin misilsiz vüsət aldığı bir dövrdür. Azərbaycan Xalq Cümhuriyyəti və onun Parlamenti obyektiv və subyektiv amillərin doğurduğu məhrumiyyət və məşəqqətlərlə dolu olan çox mürəkkəb bir tarixi şəraitdə meydana gəlmişdir.

28 may 1918-ci ildə Azərbaycan Milli Şurasının qəbul etdiyi İstiqlal Bəyannaməsi ilə Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması elan edilmiş, Hökumət başçısı Fətəli xan Xoyski bu barədə radioteleqrafla xarici dövlət başçılarına məlumat vermişdi. İyun ayının 4-də Türkiyə ilə dövlətlərarası müqavilə imzalanmışdı. Cümhuriyyət daxili və xarici siyasət sahəsində qızğın fəaliyyətə başlamışdı. 1918-ci il oktyabrın 30-da bağlanmış Mudros barışığına görə Azərbaycanı tərk edən Osmanlı qoşunları əvəzinə, noyabrın 17-də ingilis qoşunları Bakıya daxil olmuşdu. İngilis hərbi komandanlığı dekabrın 28-də bundan iki gün əvvəl yaradılmış Azərbaycan Xalq Cümhuriyyətinin yeni Hökumətini tanıdığını bəyan etmişdi. Təbriz, Xoy, Ənzəli, Batum, Kiyev, Aşqabad, Krımda və b. şəhərlərdə Azərbaycan Xalq Cümhuriyyətinin diplomatik nümayəndəlikləri açılmışdı. Bakıda isə Gürcüstan, İran, Belçika, ABŞ, İngiltərə və b. dövlətlərin rəsmi nümayəndəlikləri fəaliyyət göstərirdi. Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin 1918-ci il 7 dekabr tarixli qərarı ilə Parisə Parlamentin sədri Əlimərdan bəy Topçubaşovun başçılığı ilə tam səlahiyyətli və geniş hüquqlara malik olan nümayəndə heyəti göndərilmişdi. Bütün bunlar və digər müvafiq faktlar Azərbaycan Xalq Cümhuriyyətinin xarici ölkələr tərəfindən de-fakto tanındığını sübut edirdi. Paris Sülh Konfransı Ali Şurasının Azərbaycan Xalq Cümhuriyyətini tanınması haqqında 1920-ci il 11 yanvar tarixli qərarı isə, əslində Cümhuriyyətin de-fakto deyil, de-yure, yəni hüquqi cəhətdən tanınması demək idi. Paris Sülh Konfransı Ali Şurasının həmin qərardan sonra həyata keçirdiyi tədbirlər də bunu təsdiq edir. Belə ki, 1920-ci il yanvarın 19-da Azərbaycan nümayəndələri Ali Şuranın iclasına dəvət olunmuş, burada hərbi-siyasi xarakterli məsələlər müzakirə edilmişdi. Azərbaycan Cümhuriyyətinin beynəlxalq aləmdə de-yure tanınması onu

Sovet Rusiyasının işğalından xilas edə bilməsə də, işğalçı dövlət üçün hüquqi məsuliyyət müəyyən edirdi (3, 162-163).

Azərbaycanın müstəqilliyi haqqında İstiqlal Bəyannaməsinin 6-cı maddəsində göstərilirdi ki, Məclisi-Məbusan toplanıncaya qədər Azərbaycan idarəsinin başında Şurayi-Milli və Şurayi-Milliyə qarşı məsul Hökuməti-müvəqqəti durur. Hökumət Azərbaycan Xalq Cümhuriyyətinin ali icra hakimiyyəti orqanı idi. Parlament qarşısında məsuliyyət daşıyırdı. Azərbaycan Milli Şurasının fəaliyyət göstərmədiyi dövrdə qanunvericilik fəaliyyətini də yerinə yetirmişdir (11).

Azərbaycan Xalq Cümhurıyyəti Parlamenti, Məclisi-Məbusan – Azərbaycan Xalq Cümhuriyyətinin nümayəndəli ali qanunvericilik orqanı idi. 1918-ci ilin dekabrından 1920-ci ilin aprelinədək fəaliyyət göstərmişdir. Parlament qanunlarının hazırlanması, müzakirəsi və təsdiq olunmasında 11 fraksiya və qrupa mənsub olan millət vəkilləri iştirak edirdilər.

Milli Şuranın qəbul etdiyi Azərbaycan Məclisi-Məbusanının (Parlamentinin) təsisi haqqında qanunda göstərilirdi ki, Azərbaycan təkcə azərbaycanlılarla məskun olmadığından, Azərbaycan Milli Şurası ölkədə yaşayan bütün millətləri təmsil edir. Digər tərəfdən, müxtəlif siyasi partiyaların nümayəndələri ilə bərabər, Azərbaycan xalqının müxtəlif təbəqələrinin də Parlamentdə təmsil olunmalarına böyük ehtiyac var (3, 156).

Azərbaycan Xalq Cümhuriyyətinin Parlamenti yarandığı gündən öz işini demokratik prinsiplər üzərində qurmuşdu. Parlamentin təşkili haqqında qəbul edilmiş qanunda onun 120 nəfərdən ibarət olması nəzərdə tutulsa da, müxtəlif səbəblər üzündən Parlamentdə heç zaman bu sayda deputat iştirak etməmişdir (3, 153).

Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin fəaliyyətini tənzimləyən Azərbaycan Xalq Cümhurıyyəti Parlamentinin Nizamnaməsi olmuşdur.

Parlament fəaliyyətə başladıqdan sonra Qara bəy Qarabəyli başda olmaqla, Parlament Nizamnaməsini hazırlayan komissiya yaradıldı. Nizamnamə layihəsi 1919-cu il martın 6-da Parlamentin 20-ci iclasında Q.Qarabəyli tərəfindən müzakirəyə təqdim olundu. O, Nizamnamənin 8 fəsil (Parlamentin açılışı və onun üzvlərinin səlahiyyətlərinin yoxlanılması; vəzifəli şəxslərin Parlament tərəfindən seçilməsi; Parlamentin komissiyaları; işlərin Parlamentdə icrası qaydaları; Parlamentin ümumi iclasının aparılması qaydaları; Parlament üzvlərinin şəxsi vəziyyəti; Parlamentin rəyasət heyəti; Parlamentin Nizamnaməsinə yenidən baxılması qaydaları) və 200 maddədən ibarət olması barədə məruzə etdi.

Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti 1920-ci il aprelin 27-də keçirilən son fövqəladə iclasına qədər bu Nizamnamə əsasında fəaliyyət göstərmişdir. Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti Nizamnaməsinin tam mətni Parlamentin stenoqrafik hesabatlarının rus dilindəki cildində dərc edilmişdir (3, 157-158).

Azərbaycan Xalq Cümhuriyyəti dövründə parlamentçilik tarixi iki dövrə ayrılır: birinci dövr – 1918-ci il mayın 27-dən noyabrın 19-dək davam etmişdir. Altı aya qədər davam edən bu müddət ərzində Azərbaycan Milli Şurası adı ilə fəaliyyət göstərən və 44 nəfər müsəlman-türk nümayəndədən ibarət olan ilk Azərbaycan Parlamenti çox mühüm tarixi qərarlar qəbul etmişdi. İlk Parlamentimiz 1918-ci il mayın 28-də Azərbaycanın müstəqilliyini elan etmiş, ölkənin idarə olunmasını öz

üzərinə götürmüş və tarixi İstiqlal Bəyannaməsini qəbul etmişdir. Azərbaycan Milli Şurasının o zaman çox mürəkkəb və həlledici bir tarixi məqamda Tiflisdə – Qafqaz canişininin iqamətgahında elan etdiyi İstiqlal Bəyannaməsi Azərbaycan demokratiyası və parlamentarizm ənənələri tarixinin ən parlaq hüquqi sənədi olaraq bu gün də öz tarixi və praktiki əhəmiyyətini saxlamaqdadır. Milli Şura dövründə Azərbaycan Parlamentinin təsis toplantısı ilə birlikdə cəmi 10 iclası keçirilmişdir. İlk iclas – 1918-ci il mayın 27-də Tiflisdə, son iclas – 1918-ci il noyabrın 19-da Bakıda keçirilmişdir. Mayın 27-də Azərbaycan Milli Şurası təsis olunmuş, iyunun 17-də isə fəaliyyətini müvəqqəti dayandırıb, 6 aydan gec olmayaraq Müəssislər Məclisi çağırılmaq şərti ilə bütün qanunverici və icraedici hakimiyyəti Müvəqqəti hökumətə vermişdi. Xalq Cümhuriyyəti hökuməti 1918-ci il sentyabrın 17-də Bakıya köçdükdən sonra Azərbaycan Milli Şurası noyabrın 16-da öz fəaliyyətini yenidən bərpa etmişdir. Noyabrın 19-da Azərbaycan Milli Şurası həmin il dekabrın 3-də Müəssislər Məclisinin – geniş tərkibli Azərbaycan Parlamentinin çağırılması haqqında qanun qəbul etdi və öz fəaliyyətini dayandırdı. Beləliklə, Azərbaycan Parlamenti öz fəaliyyətinin bu dövründə, daha doğrusu, Milli Şura dövründə Tiflisdə, Gəncədə və Bakıda fəaliyyət göstərmişdir.

Azərbaycan Xalq Cümhuriyyətinin parlamentçilik tarixində ikinci dövr və ya Bakı dövrü 1918-ci il dekabrın 7-dən 1920-ci il aprelin 27-dək – cəmi 17 ay davam etmişdir. İlk iclas – 1918-ci il dekabrın 7-də, son iclas – 1920-ci il aprelin 27-də keçirilmişdir. Bu dövrdə Parlamentin cəmi 145 iclası olmuşdur. Bütün bu iclaslarda Azərbaycan Xalq Cümhuriyyətinin Parlamenti İstiqlal Bəyannaməsinin müəyyən etdiyi prinsiplərə sadiq qalaraq və konkret tarixi şəraiti nəzərə alaraq ölkənin ərazi bütövlüyünü təmin etmək və müstəqilliyini qoruyub saxlamaq, insan haqları və azadlıqlarının dolğun təmin olunduğu ən müasir hüquqi-demokratik dövlət yaratmaq məqsədi daşıyan çox mühüm qanunlar və qərarlar qəbul etmişdi. Bütün bu qanunlar və qərarlar, nəticə etibarilə, hakimiyyətin üç qolunun – qanunvericilik, icra və məhkəmə orqanlarının formalaşdırılmasına yönəlmişdi.

Azərbaycan Cümhuriyyəti Parlamenti öz varlığı zamanı bütün fəaliyyətini daha çox ölkənin siyasi və ərazi toxunulmazlığını təmin etməyə, vətəndaşların hüquqlarını qorumaq, dövlətin demokratik və hüquqi əsaslarını möhkəmləndirmək, Azərbaycan Cümhuriyyətinin dünya dövlətləri tərəfindən tanınması üçün lazımi şərait yaratmaq, onun xarici ölkələr, ilk növbədə isə yaxın qonşuları ilə siaysi, iqtisadi və ticarət əlaqələri yaratmağa yönəltmişdir.

Əlbəttə Azərbaycan Parlamentinin qəbul etdiyi qanun və qərarların hamısı müstəqil ölkənin ilk qanun və qərarları olduğu üçün çox əhəmiyyətli idi. Lakin onların arasında elə qanunlar vardı ki, ölkə üçün onların əhəmiyyətini xüsusilə qeyd etmək lazımdır. Çünki bunların Azərbaycan Cümhuriyyətinin fəaliyyətini, strateji istiqamətlərini müəyyən etməkdə mühüm rolu olmuşdur. Bunlardan Vətəndaşlıq haqqında ümumi hərbi mükəlləfiyyət haqqında, mətbuat haqqında, Milli Bankın təsisi haqqında, Bakı Dövlət Universitetinin yaradılması haqqında, kömrük və poçta-teleqraf xidmətinin təkmilləşdirilməsi haqqında, məhkəmə qanunvericiliyi haqqında və sair qanunları göstərmək olar. Parlament öz fəaliyyəti zamanı ən çox diqqət yetirdiyi mühüm məsələlərdən biri də Azərbaycanda ordu quruculuğu olmuşdur.

Parlament üzvləri başa düşürdülər ki, ölkənin siyasi və ərazi müstəqilliyini qoruyub saxlamaq üçün güclü ordu lazımdır. Ona görə də Azərbaycan Cümhuriyyəti parlamentində demək olar ki, mübahisəsiz və ümumi razılıq əsasında yalnız ordu quruculuğuna aid qanunları müzakirəsi keçir və qəbul olunurdu (1, 18-19).

Azərbaycan hökumətinin və 1918-ci il dekabrın 7-də açılan Azərbaycan parlamentinin ümdə vəzifəsi Paris sülh konfransının iştirakçısı olan qalib dövlətlər tərəfindən Azərbaycanın müstəqilliyinin tanınmasına nail olmaq idi. Buna görə də 1918-ci il dekbarın 28-də Azərbaycan hökuməti Parlamentlərin ağsaqqallar şurası nümayəndələrinin iştirakı ilə Paris sülh konfransında iştirak etmək üçün Azərbaycan Cümhuriyyəti Parlamentinin sədri, cümhuriyyətin beynəlxalq aləmdə tanımasında əvəzsiz xidmətləri olmuş Ə.M.Topçubaşovun sədrliyi ilə Fransaya nümayəndə heyəti göndərilir. Böyük əziyyətlərdən və erməni təbliğatı ilə uzun müddətli mübarizədən sonra nəhayət ki, həmin nümayəndə heyəti 1920-ci il yanvar ayının 12-də Sülh konfransındakı əsas ölkələr tərəfindən Azərbaycanın de-fakto tanınmasına nail oldular.

1920-ci il aprelin 22-də öz süqutundan beş gün əvvəl Azərbaycan Cümhuriyyəti Parlamenti Paris sülh konfransında öz missiyasını yerinə yetirmiş Azərbaycan nümayəndə heyətini buraxmaq və Qərbi Avropa ölkələrində (İngiltərə, Fransa, İtaliya, İsveçrə, Polşa) və ABŞ-da diplomatik nümayəndəliklər açmaq haqqında qanun qəbul edir (1, 21).

Yuxarıda deyildiyi kimi Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin öz varlığı müddətində 145 iclas keçirmişdir. Bu iclaslardan dördü təntənəli, ikisi tarixi, ikisi fövqəadə, 122-ci isə işgüzar iclaslar olmuşdur. Qalan 15 iclas yetərsay olmadığından baş tutmamış, lakin onlar protokollaşdırılmışlar.

Axırıncı dörd iclasdan başqa Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin iclas protokolları və stenoqrafik hesabatları Azərbaycan Respublikasının Dövlət Arxivində (ARDA) qorunub saxlanılır. Bundan əlavə Azərbaycan Cümhuriyyəti Parlamentinin iclaslarının stenoqrafik hesabatlarının əksəriyyəti o vaxt Azərbaycan və rus dillərində nəşr olunan rəsmi dövlət qəzeti "Azərbaycan"da da dərc edilmişdir (1, 25).

Qeyd edildiyi kimi, cəmi 17 aylıq fəaliyyəti dövründə Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin 145 iclası keçirilmişdir. Bütün bu iclaslarda Azərbaycan Xalq Cümhuriyyətinin Parlamenti İstiqlal Bəyannaməsinin müəyyən etdiyi prinsiplərə sadiq qalaraq və konkret tarixi şəraiti nəzərə alaraq ölkənin ərazi bütövlüyünü təmin etmək və müstəqilliyini qoruyub saxlamaq, insan haqları və azadlıqlarının dolğun təmin olunduğu ən müasir hüquqi-demokratik dövlət yaratmaq məqsədi daşıyan çox mühüm qanunlar və qərarlar qəbul etmişdi. Bütün bu qanunlar və qərarlar, nəticə etibarilə, hakimiyyətin üç qolunun-qanunvericilik, icra və məhkəmə orqanlarının formalaşdırılmasına yönəlmişdi.

AXC Parlamenti İlk iclası 7 dekabr 1918-ci il tarixdə, son iclas isə 27 aprel 1920-ci ildə keçirilmişdir. Fəaliyyəti dövründə Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin müzakirəsinə 270-dən yuxarı qanun layihəsi çıxarılmışdır ki, onların da 230-a yaxını təsdiq edilmişdir.

Əlbəttə, Azərbaycan Parlamentinin qəbul etdiyi qanun və qərarların hamısı müstəqil ölkənin ilk qanun və qərarları olduğu üçün çox əhəmiyyətli idi. Lakin onların arasında elə hüquqi sənədlər vardı ki, ölkə üçün onların əhəmiyyətini xüsusilə qeyd etmək lazımdır. Çünki bunların Azərbaycan Cümhuriyyətinin fəaliyyətini, strateji istiqamətlərini müəyyən etməkdə mühüm rolu olmuşdur. Bunlardan vətəndaşlıq, ümumi hərbi mükəlləfiyyət, mətbuat, Milli Bankın rəsisi, Bakı Dövlət Universitetinin yaradılması, gömrük və poçt-teleqraf xidmətinin təkmilləşdirilməsi, məhkəmə qanunvericiliyi haqqında və sair qanunları göstərmək olar. Azərbaycan Xalq Cümhuriyyətinin ali qanununu – Konstitusiyasını qəbul etmək isə mümkün olmamışdır.

Ümummilli lider Heydər Əliyev Azərbaycan Respublikasının yeni konstitusiya layihəsini hazırlayan komissiyanın 1995-ci il iyunun 5-də keçirilən ilk iclasındakı nitqində demişdir: Biz birinci növbədə tariximizə nəzər salmalıyıq. Azərbaycan konstitusiya quruculuğunun tarixi var. Azərbaycan Respublikasının ilk demokratik dövlətinin, 1918-ci il mayın 28-də yaranmış demokratik respublikanın konstitusiyası olmayıb. Ancaq bu hökumət, bu dövlət fəaliyyət göstərdiyi dövrdə konstitusiya xarakteri daşıyan bir neçə aktlar, qərarlar qəbul etmiş və onların əsasında işləmişdir. Ona görə də onları, demək olar ki, müəyyən qədər konstitusiya quruculuğunun başlanğıcı kimi qiymətləndirmək olar.

Azərbaycan Xalq Cümhuriyyəti gərgin və mürəkkəb ictimai-siyasi şəraitdə cəmi 23 ay fəaliyyət göstərsə də, sonrakı nəsillərin yaddaşında xalqımızın tarixinin ən parlaq səhifələrindən biri kimi həmişə qalacaqdır. O, demokratik dövlət quruculuğu, iqtisadiyyat, mədəniyyət, təhsil, səhiyyə, hərbi quruculuq sahələrində atdığı mühüm addımları başa çatdıra bilməsə də, onun qısa müddətdə həyata keçirdiyi tədbirlər xalqımızın tarixində silinməz iz buraxmış, milli dövlətçilik ənənələrimizin bərpası işində böyük rol oynamışdır (10).

Azərbaycan Xalq Cümhurıyyəti Parlamentinin açılışı münasibəti ilə siyasi amnistiya haqqında qanun – Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətə başlaması münasibətilə həyata keçirilmiş humanizm aktı. Bu barədə qanun 1918-ci il dekabrın 7-də Parlamentin birinci iclasında qəbul olunmuşdu. Amnistiya keçirmək məqsədilə Aslan bəy Qardaşov, Həmdulla Əfəndizadə, Ağa Zeynal Tağıyev, Aslan bəy Səfikürdski, S.Ağamalıoğlundan ibarət xüsusi heyət – "Əfvi-ümumi" komissiyası yaradılmışdı. Komissiya dekabrın 11, 13, 17 və 25-də keçirdiyi iclaslarda "Azərbaycan Cümhuriyyəti Parlamentinin açılışı münasibəti ilə siyasi amnistiya haqqında" qanun layihəsini hazırlayaraq Parlamentin 1919-cu il yanvarın 8-də keçirilən 7-ci iclasının müzakirəsinə vermişdi. Qanuna görə 1918-ci il dekabrın 7-nə qədər həbs edilmiş və ölkədə qüvvədə olan keçmiş Rusiya qanunlarının həm cinayət, həm də mülki məcəllələrinin bir sıra maddələri ilə təqsirli bilinən şəxslər bağışlanırdı. Bu qanuna əsasən həmin il dekabrın 7-nə qədər törədilmiş və icraatda olan məhkəmə işlərinə də xitam verilirdi (3, 156).

Amnistiya qanununa əsasən, Cinayət Qanunun 129-133, 262-272, 275, 276, 278, 280, 281 və digər maddələrlə məhkum olunmuş şəxslər məsuliyyətdən və cəzadan bütün nəticələri ilə birlikdə azad edilirdilər (7, 15).

Parlamentin hələ təsis olunmadığı dönəmdə AXC hökuməti keçmiş Çar Rusiyasının qanunlarını (o cümlədən cinayət qanunvericiliyini) qüvvədə saxlamağı məqbul hesab etmişdi. Belə ki, cinayət qanunverciliyi sahəsinə Rus imperiyasının Cinayət və islah cəzaları haqqında 1845-ci il Qanunnaməsi və 1903-cü il Cinayət Qanunnaməsinin qüvvəyə minən hissəsi (daha ağır cinayətlərə görə məsuliyyətə dair fəsillər) yenidən tətbiq edilməyə başlamışdı.

Rusiya XX əsrə 1845-ci il Cinayət və İslah cəzaları haqqında qanunnaməsi ilə daxil olmuşdur. Qanunnamə 15 may 1845-ci ildə təsdiq olunsa da, 1 may 1846-cı ildən qüvvəyə minmişdir. Qanunnamə qəsdən edilən və ya ehtiyatsızlıqdan törədilən ağır qətllərə aid edilmişdi: ata qətli, qohum qətli, xidmət etdiyi idarə rəisinin qətli, ağanın və ya onun ailə üzvünün qətli, qatilin istədiyi və ya xidmət etdiyi sahibkarın və ya ustanın qətli, tərbiyəçinin qətli, din xadiminin qətli, hamilə qadının qətli, ümumi qorxu törədən üsul ilə edilən qətl, əzab verməklə edilən qətl, xaincəsinə və ya pusquda durmaqla edilən qətl, zəhərləmə (cinayət törətməyə cəsarəti olmayanlar belə zəhərləmə yolu ilə adam öldürə bildiklərindən, bu əməl ağır qətlə aid edilmişdi (6, 83).

1845-ci il Qanunnaməsinin mühüm xidməti Rusiya cinayət qanunvericiliyini ilk dəfə Ümumi və Xüsusi hissə formalarında sistemləşdirməsi olmuşdur. Lakin qanunnamə məzmununa görə mühafizəkar hüquqi akt olduğundan, bu dövrün yeni sənaye, aqrar və məhkəmə islahatlarının tələblərinə cavab vermirdi. 1861-1864-cü illərdə Rusiyada məhkəmə-hüquq islahatları aparıldı. İslahatın bir istiqaməti kimi 1885-ci ildə həmin Qanunnamənin yeni redaksiyası qəbul olundu və qüvvəyə mindi. Qanunnamə cinayət hüququnu Ümumi və Xüsusi hissələrə ayırsa da, Xüsusi hissənin normaları hansısa meyar əsasında sistemləşdirilməmişdir (8, 27).

Rusiya İmperatoru III Aleksandrın dövründə yeni cinayət qanunnaməsinin hazırlanması işinə başlanıldı. Layihə 1895-ci il üçün hazır oldu, 22 mart 1903-cü ildə II Nikolay tərəfindən təsdiq olundu. 1903-cü il Cinayət Qanunnaməsi bundan əvvəlki qanunnamələrə nisbətən həm hüquq texnikası nöqteyi-nəzərindən, həm də cinayət hüquq institutlarının formulə edilməsi nəzərindən daha mükəmməl sənəd olmuşdur. Bu Qanunnamə Avropa cinayət məcəllələrinin təsirini özündə əks etdirməklə, o dövrün cinayət hüququ nəzəriyyəsi səviyyəsində olmuşdur (5, 54). Lakin qanunnamənin əksər fəsilləri qüvvəyə minmədi.

Rusiyada 1917-ci il oktyabr inqilabından sonra hakimiyyətə gələn bolşeviklər çarizmdən miras qalmış qanunlardan imtina etdilər. Buna baxmayaraq yeni hüquq sistemini tez bir zaman ərzində yaratmaq mümkün olmadığından 1917-ci ilin noyabrında və 1918-ci ilin martında məhkəmələr haqqında verilmiş 1 və 2 nömrəli dekretlərə əsasən çar Rusiyasının inqilabi hökumət tərəfindən ləğv olunmamış qanunlarından istifadə olunmasına icazə verildi. Buna görə də 1917-1918-ci illərdə sovet dövlətinin qanunları ilə yanaşı, sovet hakimiyyəti tərəfindən ləğv olunmamış və inqilabi hüquq düşüncəyə zidd olmayan köhnə hüquq normaları da müvəqqəti olaraq qüvvədə olmuşdur. Bununla belə, "Məhkəmələr haqqında" 1918-ci il 20 iyulda verilmiş 3 saylı dekret devrilmiş hökumətin qanunlarına istinad etməyi qadağan etdi.

Sovet cinayət qanunvericiliyinin ilk aktları cinayətkarlıqla mübarizədə sovet dövləti siyasətinin ancaq ümumi istiqamətlərini müəyyən edirdi. Bu səbəbdən ilk

illərin qanunvericiliyində həyat əleyhinə yönələn cinayətlər üstündə bilavasitə məsuliyyət nəzərdə tutan cinayət hüquqi norma olmamışdır. RSFSR-in Xalq Ədliyyə Komissarı olmuş D.İ.Kurski yazırdı: "…Qüvvədə olan dekretlərdə həmçinin şəxsiyyətin fiziki toxunulmazlığını mühafizə edən, təhqir, bədənə xəsarət yetirmə, adam öldürmə kimi əməlləri nəzərdə tutan norma yoxdur…" (9, 163-164).

Ona görə də sovet hakimiyyətinin ilk illərində bu və digər məsələ qanunla tənzim olunmayan hallarda məhkəmə və sair dövlət orqanları onları inqilabi hüquq düşüncəsinə əsasən həll edirdilər.

Keçmiş RSFSR-in 12 dekabr 1919-cu il "RSFSR-in cinayət hüququ üzrə Rəhbər Başlanğıcları" əsasında Azərbaycan Respublikasının Xalq Ədliyyə Komissarlığı Azərbaycan SSR-in Cinayət hüququnun əsas müddəalarının layihəsini hazırladı və bu layihə 9 iyul 1920-ci ildə Azərbaycan İnqilab Komitəsi tərəfindən təsdiq olundu (9, 155).

1919-cu ilin "Rəhbər Başlanğıcları" əsasında hazırlanmış RSFSR-in ilk 1922-ci il Cinayət Məcəlləsi, demək olar ki, hər hansı dəyişiklik olmadan bütün respublikalarda qəbul olunmuşdur.

Azərbaycan Xalq Cümhuriyyətinin müstəqilliyinin böyük dövlətlər tərəfindən tanınması münasibətilə güzəştlər haqqında qanun – Azərbaycan Xalq Cümhuriyyətinin beynəlxalq aləmdə de-fakto tanınması münasibətilə həyata keçirilmiş humanizm aktı 1920-ci il fevralın 9-da Azərbaycan Parlamenti tərəfindən qəbul edilmişdir. Qanuna əsasən, 1920-ci il yanvarın 11-də Azərbaycanın müstəqilliyinin Antanta ölkələri tərəfmdən de-fakto tanınması münasibətilə, cinayət törətmiş şəxslər və vergi ödəyənlər barəsində müəyyən əsaslarla güzəştlər elan edilmişdi. Üç hissədən (ümumi, hərbi və vergilər üzrə kəsirlər) ibarət olan qanun Azərbaycanda yaşayan əcnəbilərə də şamil olunurdu (3, 162).

AXC müstəqil məhkəmə sisteminin yaradılması sahəsində də mühüm tədbirlər həyata keçirmişdi. Azərbaycan Xalq Cümhuriyyəti 1920-ci il aprelin 28-də beynəlxalq hüquq normalannı kobudcasına pozan Sovet Rusiyasının hərbi müdaxiləsi nəticəsində aradan qaldırıldı. Şimali Azərbaycan rus-bolşevik qoşunları tərəfindən işğal edildi və yenidən Rusiyaya ilhaq olundu. Sosializm sistemi və Sovet Sosialist Respublikaları İttifaqı (SSRİ) dağıldıqda, Azərbaycan xalqı Şimali Azərbaycanda dövlət müstəqilliyini yenidən bərpa etdi (1991, 18 oktyabr).

Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin varisidir (4, 11).

Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin qəbul etdiyi bütün qanun və qərarlar müstəqil dövlətin ilk qanun və qərarları olduğu üçün böyük əhəmiyyətə malik idi. Bununla belə, onların arasında müstəsna əhəmiyyət kəsb edən, yəni Azərbaycan Xalq Cümhuriyyəti fəaliyyətinin strateji istiqamətlərini müəyyənləş-dirən bir sıra qanunlar da olmuşdur. Məsələn, vətəndaşlıq, ümumi hərbi mükəllə-fiyyət, mətbuat, Milli Bankın təsisi, Bakı Dövlət Universitetinin yaradılması, gömrük və poçt-teleqraf xidmətinin təkmilləşdirilməsi, məhkəmə qanunvericiliyi haqqında və bir çox başqa qanunlar.

Parlamentdə ordu quruculuğuna aid qanunların müzakirəsi və qəbulu, demək olar ki, mübahisəsiz və ümumi razılıq əsasında keçirilirdi (3, 155).

Azərbaycan xalqının salnaməsində bu əlamətdar hadisənin dominantı, birinci növbədə, XX əsrdə yaranmış üç Respublikadır: Azərbaycan Cümhuriyyəti (1918-28 may – 1920-28 aprel), Azərbaycan SSR (1920-28 aprel – 1991-18 oktyabr) və əsl Prezidenti, lideri H.Ə.Əliyev olan Azərbaycan Respublikası.

Möhtərəm Prezident H.Ə.Əliyev qeyd edirdi: "Əgər XX əsrin əvvəlində xalqımız milli azadlıq, dövlət müstəqilliyi yolunda ilk dəfə böyük addım atıbsa, XX əsrin sonunda milli azadlığa, dövlət müstəqilliyinə tam nail olubdur".

Azərbaycan tarixinin, milli – dövlətçilik oyanışı, milli ərazi bütövlüyünün müdafiəsi, bəşəriyyətin Azərbaycanı tanıması, Azərbaycan cəmiyyətində başlanan yenilik sosial-iqtisadi, mədəni dəyişikliklərlə zənginləşən bir dövrü olmuşdur. Azərbaycan Cümhuriyyətinin tarixi əhəmiyyəti də ən ümdə bundadır.

Demək olar ki, Azərbaycan Cümhuriyyəti elan olandan ilyarımdan çox Türkiyə və Antanta hökumətləri himayəsi (mandatı) altında olmuş, yeddi aya kimi ölkədə iki hakimiyyətlilik mövcud olub, Bakıda sovet hökuməti, Gəncədə isə milli hökumət fəaliyyət göstərib, Qərb dövlətləri tərəfindən də de-yure tanınmamışdır, de-fakto isə 1920-ci il 11 yanvarda etiraf edilmişdir (2, 304-307).

Cəmi 23 ay yaşamasına baxmayaraq, Azərbaycan Xalq Cümhuriyyəti sübut etdi ki, Azərbaycan xalqı müstəqil yaşamağa, öz dövlətçilik ənənələrini bərpa etməyə qadirdir.

1918-ci il dekabr parlamenti sıradan bir parlament deyildi, o, xarakterik olaraq Azərbaycan parlamenti idi. Azərbaycan xalqının tarixində ilk Parlamentli respublika olan Azərbaycan Xalq Cümhuriyyəti, eyni zamanda, bütün Şərqdə, o cümlədən türk-islam dünyasında ilk demokratik, hüquqi və dünyəvi dövlət nümunəsi oldu. O, tarixi xariqələr yaratmış bəşəriyyətə böyük dəyərlər vermiş müsəlman Şərqində, çoxəsrlik Azərbaycan salnaməsində fövqəladə bir hadisədir. Onun elmi prinsiplər əsasında öyrənilməsi tarixi baxımından bu günümüz üçün də aktuallıq kəsb edir.

## İstifadə edilmiş ədəbiyyat:


1. Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (Stenoqrafik hesabatlar). I cild. – Bakı, "Azərbaycan" nəşriyyatı, 1998, 976 s.
2. Azərbaycan Cümhuriyyəti (1918-1920). Bakı, "Elm", 1998, 336 s.
3. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. İki cilddə, I cild. "Lider nəşriyyatı", Bakı, 2004, 440 s.
4. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. 2 cilddə, 1-ci cild. Bakı, "Şərq-Qərb" Nəşriyyat Evi, 2014, 446 s.
5. Cinayət hüququ. Ümumi hissə (Mütərcimləri: A.Kərimov, X.Orucov, A.Xancanboyev). Bakı: Azərnəşr, 1950
6. Ramzenko A.D. 1700-1850-ci illərdə xarici cəza qanunvericiliklərdə qətllərin növləri, Kiyev, 1981, 392 s.
7. Азербайджанская Демократическая Республика (1918-1920 гг). Законодательные акты (Сборник документов). Baky, издательство «Азербайджан», 1998, 560 s.
8. Бородин С.В. Преступления против жизни. М.: Юристь, 2000
9. История государства и права Азербайджанской ССР / Под ред. М.С.Халафова и др. Баку: Элм, 1964
10. Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin yaradılması milli ... www.xalqqazeti.com/az/news/politics/44889
11. Hökumət - Azərbaycan Xalq Cümhuriyyəti - Prezident Kitabxanası axc.preslib.az/az_a4.html